# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ƏZİZ XATİRƏSİ SONSUZ MƏHƏBBƏT VƏ EHTİRAMLA YAD EDİLDİ



## Gəncə

Ümummilli lider Heydər Əliyev fenomeni hər bir azərbaycanlı üçün örnəkdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə əlaqədar Gəncə şəhərinin möhtəşəm Heydər Əliyev meydanındakı böyük izdihamda, on minlərlə sakinlər əllərində gül-çiçək, ümummilli liderin əzəmətli abidəsi önünə ziyarətə gəlmişdirlər. Öncə, Gəncə Şəhər İcra Hakimiyyətinn başçısı Niyazi Bayramov, rəsmi şəxslər ulu öndərin əzəmətli abidəsinə ehtiramla baş əyərək, ürəklərində sevgi və rəğbət duyğuları ilə dahi şəxsiyyətin əziz xatirəsini yad etdilər.

Sonra, sıra ilə hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların, təhsil, səhiyyə və mədəniyyət ocaqlarının kollektivləri, həzin matəm musiqi sədaları altında, ulu öndər Heydər Əliyevin əzəmətli abidəsi önünə tər çiçəklər düzərək sevgilərini nümayiş etdirdilər. Ardı-arası kəsilməyən izdiham, böyük qələbəlik ulu öndərin ruhuna əbədi ehtiramın parlaq nümayişi kimi könülləri riqqətə gətirirdi. Çünki, Azərbaycan xalqının ictimai-siyasi həyatında, dövlətçilik tarixində mühüm rol oynayan ümummilli lider adını qızıl hərflərlə Azərbaycan tarixinə yazmışdır. Odur ki, canlı əfsanəyə çevrilən Heydər Əliyevə ümumxalq sevgisi, Heydər Əliyev fenomeninə maraq illər ötdükcə daha da artır. Ümummilli lider bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları, müdrik əməlləri, şərəfli və mənalı ömür yolu hər bir Azərbaycanlı üçün layiqli örnəkdir.

## Mingəçevir

Dekabrın 12-si xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümü idi. Həmin gün Mingəçevirdə də ulu öndər Heydər Əliyevin xatirəsi ehtiramla yad edilib. Anım günü ilə əlaqədar Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, hüquq-mühafizə orqanları, ictimaiyyət nümayəndələri, idarə və təşkilatların kollektivləri, tələbələr, şəhər sakinləri ulu öndər Heydər Əliyevin adını daşıyan mərkəzin önündə ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla anıblar. Daha sonra mərkəzdə ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olub, onun haqqında filmi izləyiblər. Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə verilən ehsan süfrəsindən öncə ulu öndərin ruhuna dualar oxunub və Allahdan rəhmət dilənib.

## Şəki

Ulu öndər Heydər Əliyevin vəfatının on altıncı ildönümü ilə əlaqədar Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində anım tədbiri keçirilib.

İctimaiyyət nümayəndələrinin və ziyalıların iştirakı ilə keçirilən toplantıda şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, ulu öndərin mənalı ömür yolundan, xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi xidmətlərindən danışıb.

Bildirilib ki, otuz beş ilə yaxın bir müddətdə Azərbaycanın taleyi dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı olub. Ümummilli lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişafı və tərəqqisi yolunda, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Dahi rəhbərin xalqla bağlı ömrünün əbədiyyətə qovuşduğu andan on altı il vaxt keçsə də, ötən hər bir gün bu tarixi şəxsiyyəti xalqa daha da yaxınlaşdırır, doğmalaşdırır.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib.

Sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

## Zaqatala

Dekabrın 12-də Zaqatala rayonunda Azərbaycan xalqının xilaskarı, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş ümumrayon tədbiri keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilatların kollektivləri və sıravi vətəndaşlar iştirak etmişdir.

Tədbir iştirakçıları ilk öncə ümummilli liderin adını daşıyan parka gələrək ulu öndərin abidəsini ziyarət etmiş, önünə tər çiçəklər düzmüş, xatirəsini ehtiramla yad etmişlər. Sonra Heydər Əliyev Mərkəzində ümummilli liderimiz Heydər Əliyevin anım günü münasibəti ilə elmi-praktik konfrans keçirilmişdir.

Konfransda Zaqatala Rayon İcra Hakimiyyəti başçısı Mübariz Əhmədzadənin "Əbədiyaşar lider" mövzusunda geniş məruzəsi dinlənilmişdir. Rayon rəhbəri ümummilli liderimiz Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və çağdaş mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və siyasi fəaliyyəti boyu bu prinsiplərə istinad etməsi, bu fenomen şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə yeganə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillərdən olduğunu qeyd etmiş, onun əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacağını xüsusi vurğulamışdır.

Konfrans dahi şəxsiyyətə həsr olunmuş videoçarxın nümayişi ilə yekunlaşmışdır.

## İsmayıllı

İsmayıllı sakinləri ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar onun abidəsi önünə rayon icra hakimiyyəti adından əklil qoyublar. Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ziyarətçilərin ön cərgəsində olublar.

Rayon polis şöbəsinin, yanğın təhlükəsizliyi xidmətinin, digər hüquq mühafizə və ədliyyə orqanlarının əməkdaşları sıx sıralarla gəlib abidənin önünə gül dəstələri düzüblər. Gənclər, şagirdlər, Humanitar və Texnologiya Kollecinin, Peşə Tədris Mərkəzinin müəllim və tələbələri, icra strukturlarının, xidmət təşkilatlarının işçiləri ulu öndərin abidəsini ehtiramla ziyarət ediblər.

## Naftalan

Naftalan Şəhər İcra Hakimiyyətinin, YAP şəhər təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin, geniş ictimaiyyət nümayəndələrinin iştirakı ilə ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Naftalanda ümumşəhər anım mərasimi keçirilmişdir.

Heydər Əliyev parkında, Azərbaycan xalqının xilaskarı, dahi şəxsiyyət, ulu öndərin xatirəsinə ucaldılmış əzəmətli abidəsinin qarşısına yığılan minlərlə naftalanlı abidənin önünə əklil və tər qərənfillər qoyaraq, ümummilli liderə sonsuz məhəbbətini və ehtiramını bildirmişlər.

Sonra, tədbir möhtəşəm Heydər Əliyev Mərkəzində davam etdirilmişdir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək, qeyd etdi ki, 2003-cü ilin 12 dekabrı bütün dünya azərbaycanlılarının xatirəsində əbədi həkk olunmuşdur. Bu gün ulu öndərin vəfatından 16 il ötsə də, Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan bu dahi insan bütün dünya azərbaycanlılarının fəxrinə çevrilmişdir. Ulu öndər Heydər Əliyev rəhbərliyinin bütün dövrlərində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı öz qətiyyəti və uzaqgörənliyi, müdrikliyi ilə bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb edib, heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya miqyasında kök atib. Bu gün onun inkişaf strategiyasını uğurla davam etdirən praqmatik dövlət başçısı, möhtərəm Pezidentimiz cənab İlham Əliyevin titanik səyi nəticəsində Azərbaycan regionda ən qüdrətli ölkəyə çevrilmişdir.

## İmişli

İmişli rayon ictimaiyyətin nümayəndələri dekabrın 12-də xalqımızın ümummilli lideri Heydər Əliyevin icra hakimiyyəti qarşısında ucaldılmış möhtəşəm abidəsi önünə gül-çiçək dəstələri düzüb, dahi rəhbərə sonsuz hörmət və ehtiramlarını bir daha nümayiş etdirdilər.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev ümummilli lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra ulu öndərin şərəfli ömür yolundan, vətənimiz qarşısında tarixi xidmətlərindən danışıb. O deyib: "İmişlilər yaxşı bilirlər ki, ulu öndər həmişə xalqına, Vətəninə bağlı olmuş, öz cəsarəti, müdrikliyi, vətənpərvərliyi ilə xalqımızın keşiyində durmuş, ən çətin anlarda həyatını xalqımızın milli amallarına qurban verməyə hazır olduğunu dəfələrlə sübut etmişdir. "Biz imişlilərin bu gün bura toplaşması ömrünü xalqının xoşbəxtliyinə həsr etmiş böyük, dahi ulu öndərin əziz xatirəsinə göstərilən dərin məhəbbət və ehtiramın bir ifadəsidir".

Digər çıxış edənlər də ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müasir, müstəqil Azərbaycan Respublikasının quruculuğu yolundakı şərəfli mübarizəsi barədə fikirlər söylədilər. Anım mərasimi daha sonra Heydər Əliyev mərkəzində ümummilli liderin həyat və yaradıcılığına həsr edilmiş qısametrajlı filimə baxışla davam etdi.

## Biləsuvar

Biləsuvar rayonundakı Heydər Əliyev Parkında müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının on altıncı ildönümü ehtiramla qeyd olundu.

Tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, hüquq-mühafizə orqanları, rayonun bütün idarə, müəssisə, təşkilatlarının kollektivləri və rayon ictimaiyyəti iştirak etdi. Ulu öndərə olan məhəbbətlərini ifadə edən biləsuvarlılar dahi şəxsiyyətin abidəsi önünə tər çiçəklər qoyaraq, əziz xatirəsini ehtiramla yad etdilər.

Daha sonra rayon sakinləri Heydər Əliyev Mərkəzində ulu öndərin keçdiyi şərəfli ömür yolunu əks etdirən fotosərgilərdən ibarət muzeyi ziyarət etdilər.

Ümummilli liderin anım günü tədbirləri çərçivəsində rayon ictimaiyyətinin, ağsaqqalların və din xadimlərinin iştirakı ilə ehsan süfrələri təşkil olundu, ulu öndərin ruhuna dualar oxundu.

Mərasimdə çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev ulu öndərin həyat və fəaliyyəti haqqında danışaraq bildirdi ki, Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

## Cəlilabad

Azərbaycanın hər yerində olduğu kimi, Cəlilabadda da ulu öndərin anım günü ümumxalq sevgisinin nümayişinə çevrilib. Rayonun minlərlə sakini şəhərin mərkəzi meydanına - Heydər Əliyev Parkına gələrək ulu öndərin abidəsini ziyarət ediblər. Heydər Əliyevin Cəlilabadın sosial-iqtisadi inkişafı ilə bağlı əvəzsiz xidmətləri var. O, Azərbaycana rəhbərlik etdiyi illərdə dəfələrlə Cəlilabadda səfərdə olub, sakinlərlə görüşərək onları narahat edən problemləri dinləyib və həlli ilə bağlı tapşırıqlarını verib, yeni infrastrukturun yaradılmasını, yaşayış massivlərinin salınmasını, təhsil, səhiyyə, mədəniyyət ocaqlarının, emal müəssisələrinin tikilməsini birbaşa diqqətində saxlayıb. Bu gün hər bir cəlilabadlı qürur hissi keçirir ki, onlar bu diqqət və qayğını ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevdən görürlər. Cəlilabad rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı Azərbaycan Prezidentinin imzaladığı sərəncamları cəlilabadlılar sonsuz sevinc və minnətdarlıq hissi ilə qarşılayırlar.

Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar Cəlilabad rayonunun bütün yaşayış məntəqələrində, ərazi icra nümayəndəliklərində və bələdiyyələrdə, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində, idarə, müəssisə və təşkilatlarda tədbirlər, mərasimlər keçirilib. Dekabrın 12-də Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov, hüquq-mühafizə orqanlarının rəhbərləri, Yeni Azərbaycan Partiyası Cəlilabad rayon təşkilatının idarə heyətinin üzvləri, ağsaqqallar, gənclər, tələbələr, məktəblilər, idarə, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələri ulu öndərin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov Göytəpə şəhərində Heydər Əliyev adına park-bulvarda və Heydər Əliyev adına Alar kənd 1 saylı tam orta məktəbin həyətində ümummilli liderin abidəsini ziyarət etmiş və abidənin önünə təzə-tər gül dəstələri qoymuşdur. Tədbirin sonunda Heydər Əliyevin anım günü ilə bağlı ehsan süfrəsi açılıb, ruhuna dualar oxunub.

## Beyləqan

Beyləqan rayonunda ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirildi. Tədbirdə Rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayon ərazisində yerləşən idarə və təşkilatların rəhbərləri, veteranlar, gənclər, əsgərlər, ictimaiyyət nümayəndələri və ziyalılar iştirak etdi. Tədbir iştrakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyub ulu öndərin əziz və parlaq xatirəsi ehtiramla yad etdilər.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. Tədbirdə ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra ümummilli liderə həsr edilmiş "Dahi Şəxsiyyət" adlı film nümayiş etdirildi.

Filmin nümayişindən sonra Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək, dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin bütün ömrünü doğma vətənimizin iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyinə, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr etdiyini söylədi. Ulu öndərin respublikamıza rəhbərlik etdiyi illər ərzində böyük elmi, intellektual kadr, iqtisadi və enerji potensialı yaradılmasına nail olduğunu, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoyduğunu qeyd edən Asif Ağayev bildirdi ki, Azərbaycan xalqının qazandığı müstəqilliyə və onun qorunub saxlanması sahəsində əldə etdiyi bütün nailiyyətlərə görə xalqın böyük oğluna daim minnətdardır.

Digər çıxış edənlər də ulu öndərin siyasi hakimiyyətdə olduğu illərdə həyata keçirilən quruculuq, abadlıq işlərindən, müstəqil Azərbaycanın qurulması sahəsində göstərdiyi xidmətlərdən danışdılar. Ümummilli lider Heydər Əliyevin müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik şəxsiyyət kimi müasir Azərbaycan dövlətinin qurulması istiqamətində atdığı addımlardan bəhs etdilər.

## Salyan

Salyan rayon Heydər Parkında ulu öndər Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar izdihamlı anım tədbiri keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, ziyalılar, "N" saylı hərbi hissənin əsgər və zabitləri, Qarabağ müharibəsi əlilləri və veteranları, dindarlar və ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül-çiçək dəstələri düzərək xatirəsini ehtiramla yad etmişlər. Anım tədbiri rayon İcra Hakimiyyətində davam etdirildi. Rayon İcra Hakimiyyətinin və Mədəniyyət Mərkəzinin birgə hazırladığı ədəbi-bədii kompozisiyada ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilmiş, rayon incəsənət ustaları şeir və musiqilərlə çıxış etmişlər.

Sonra rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə mərasim evində ehsan süfrəsi açılmışdır.

## Göyçay

Göyçay rayonunun çoxsaylı sakinləri - icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, təhsil və səhiyyə işçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, ağsaqqallar və gənclər görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar keçirdikləri anım mərasimində ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Səhər saatlarında insanlar ulu öndərin şəhərin mərkəzindəki abidəsi önünə gül-çiçək dəstələri düzüblər.

Ehsan süfrəsi arxasında davam edən mərasimdə dahi insan Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək müasir müstəqil Azərbaycan dövlətinin yaranmasında, inkişafında və dünyada tanınmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolundan bəhs edib, Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətlərindən danışıb. Rayon rəsmisi Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaran, bütün bunlara görə xalqın ümummilli lideri səviyyəsinə yüksələn Heydər Əliyevin heç vaxt unudulmayacağını, daim xalqının qəlbində yaşayacağını bildirib.

Mərasimdə ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, Azərbaycan xalqının bu siyasəti yüksək dəyərləndirdiyi və Prezidentin ətrafında daha sıx birləşdiyi diqqətə çardırılıb.

## Ağsu

Müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümündə Ağsuda rayon ictimaiyyətinin çoxsaylı nümayəndələri şəhərin mərkəzindəki Heydər parkına gələrək böyük öndərin abidəsini ziyarət edib, önünə qərənfillər düzüb, bu dahi şəxsiyyətə öz ehtiramlarını bildiriblər.

Heydər Əliyev Mərkəzində keçirilən toplantıda böyük öndərin həyat və fəaliyyətindən bəhs edən "Dahi şəxsiyyət" sənədli filmi nümayiş etdirilib. Toplantını giriş sözü ilə Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Vahid Tağıyev açıb, ümummilli liderin öz Vətəni və xalqı qarşısındakı xidmətlərindən danışaraq vurğulayıb ki, Azərbaycanın milli inkişaf modelinin banisi olan dahi şəxsiyyət dövlətçiliyimizin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını elmi prinsiplər əsasında müəyyənləşdirib. Bugünkü müasir, müstəqil, çiçəklənən qüdrətli Azərbaycan ulu öndərin şah əsəridir.

Toplantıda çıxış edənlər ümummilli lider Heydər Əliyevin öz xalqı qarşısındakı misilsiz xidmətlərindən danışdılar. İftixarla söylənildi ki, bu gün Azərbaycan böyük öndər Heydər Əliyev siyasi kursunun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla irəliləyir.

## Samux

Dünya şöhrətli siyasi xadim, türk dünyasının fenomeni, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından on altı il keçir. Qeyri-adi siyasət və dövlət xadiminə xas olan böyük isdedadı ilə fərqlənən xarizmatik lider Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Hər il dekabrın 12-də Samux rayonunda dövlət nümayəndələri, geniş ictimayətin nümayəndələri, ziyalılar və ağsaqqallar ulu öndərin əzəmətli abidəsi önünə tər çiçəklər düzərək, əvəzsiz şəxsiyyətin unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Hər kəsin yaddaşında ulu öndərin xalq qarşısında misilsiz xidmətləri canlanırdı.

Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev bildirdi ki, müstəqil Azərbaycan dövləti dahi Heydər Əliyevin şah əsəridir, öz xalqı qarşısında tarixi xidmətidir. Məhz buna görə də onun adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır, onun tarixi rolu, xidmətləri əvəzsizdir. Böyük sənaye müəssisələrinin, mədəni, inzibati və sosial obyektlərin ərsəyə gəlməsində böyük əməyi olmuş dahi şəxsiyyətin əziz xatirəsi hər bir qədirbilən samuxlunun qəlbində daima yaşayacaqdır. Heydər Əliyev ideyalarının yaşadılması, onun dühasının bəhrəsi olan müstəqil Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi naminə möhtəşəm, yorulmaz fəaliyyətinə görə bütün xalqımız kimi, samuxlular da ölkə Prezidenti möhtərəm İlham Əliyevə minnətdardırlar. Biz əminik ki, onun uğurla davam etdirdiyi Heydər Əliyevin siyasi xətti xalqımızı və dövlətimizi daha parlaq gələcəyə qovuşduracaqdır.

## Zərdab

Zərdab rayonunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbirində rayon icra hakimiyyətinin rəsmiləri, idarə və müəssisələrin kollektivləri, hüquq-mühafizə orqanlarının əməkdaşları və minlərlə sakin iştirak edib.

Rayon rəhbərliyi, əmək kollektivlərinin üzvləri, ictimaiyyət nümayəndələri ulu öndərin Zərdabın mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, xatirəsini ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Mərkəzində sərgilənmiş eksponatlarla tanışlıq olub - divar qəzetlərinə baxış keçirilib. Qəzetlərin səhifələrində ulu öndərlə bağlı yer almış yazılar maraqla izlənilib.

Ümumrayon tədbirində çıxış edən Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə "Heydər Əliyev müstəqil, demokratik, dinamik inkişaf edən Azərbaycan dövlətinin memarı və qurucusudur" mövzusunda nitq söyləyib. M.Camalzadə Heydər Əliyevin keçdiyi şərəfli həyat yolundan, xalqın ən ağır günlərində təcrübəli və müdrik siyasətçi kimi misilsiz xidmətlərindən danışıb.

Tədbirdə ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

## Kürdəmir

Dekabrın 12-də rayonun Heydər Əliyev parkında müasir demokratik Azərbaycan dövlətinin xilaskarı və qurucusu, dahi şəxsiyyət Heydər Əliyevin anım günü münasibətilə ümumrayon anım mərasimi keçirildi.

Tədbirdə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov, hüquq-mühafizə orqanlarının, eləcə də idarə, müəssisə, təşkilatların rəhbərləri, veteranlar, rayonun əmək kollektivlərinin üzvləri, ictimaiyyət nümayəndələri və rayon sakinləri iştirak edirdilər.

Minlərlə kürdəmirli ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri düzməklə ona olan məhəbbətlərini və ehtiramlarını bir daha nümayiş etdirdilər.

Ulu öndərin xatirəsini yad etmək üçün gələn hər kəsin dilində bir fikir səslənir-nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaq.

## Füzuli

Ulu öndər Heydər Əliyevin vəfatının 16-ci ildönümü münasibətilə Horadiz şəhərində keçirilən ümumrayon tədbirində minlərlə insan iştirak edib.

Füzuli rayon rəhbərliyi, idarə, müəssisə və təşkilatların kollektivləri, ağsaqqallar, gənclər, Qarabağ müharibəsi veteranları, əsgər və zabitlər əvvəlcə dahi rəhbər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüb, bu dahi insanın əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Rayon icra hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək ümummilli lider Heydər Əliyevin mənalı ömür yolundan, xalqımız qarşısındakı tarixi xidmətlərindən, dahi rəhbərin müəyyənləşdirdiyi iqtisadi-siyasi xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində ölkəmizdə qazanılan nailiyyətlərdən danışıb. Böyük iftixarla bildirilib ki, ulu öndərin adı füzulilərin qəlbində əbədi yaşayacaq.

## Ağcabədi

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi böyük siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət Heydər Əliyev mənalı ömrünü Azərbaycan xalqının xoşbəxtliyinə və respublikamızın inkişafına sərf edib.

Ağcabədi Pedaqoji Kollecində ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü münasibətilə keçirilən tədbirdə Gənclər və İdman İdarəsinin Pedaqoji Kolleclə birgə təşkil etdiyi tədbirin iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin büstü önünə tər çiçək dəstələri düzüb, dahi rəhbərin əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə çıxış edənlər xalqımızın böyük oğlu Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, ölkəyə rəhbərlik etdiyi hər iki dövrdə gördüyü işlərdən, xalqımız qarşısında misilsiz xidmətlərindən danışıb, Azərbaycanın ən yeni tarixini, ölkəmizin həyatının bütün sahələrində əldə edilmiş möhtəşəm nailiyyətləri ulu öndərin müdrik dövlətçilik siyasətinin məntiqi nəticəsi kimi dəyərləndiriblər.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

## Ucar

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümü münasibətilə rayon mərkəzindəki ulu öndərin abidəsi önündə anım mərasimi keçirilib.

Tədbirdə Ucar Rayon İcra Hakimiyyəti başçısı aparatının əməkdaşları, hüquq-mühafizə orqanları, rayonun bütün ümumtəhsil məktəblərinin kollektivləri və şagirdləri, idarə, müəssisə və təşkilatları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Əmək kollektivləri adından ulu öndərin abidəsi önünə gül dəstələri düzülüb.

Daha sonra Heydər Əliyev Mərkəzində şəhər 1 nömrəli məktəb-liseyin hazırladığı "Əbədiyyət dastanı" adlı tematik tədbir təqdim olunub. Əvvəcə ulu öndərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Məktəblilər müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın əvəzsiz lideri, dahi şəxsiyyət, ölkəmizin aydın sabahı naminə həyatını belə əsirgəməyən Heydər Əliyev haqqında şeirlər söyləyiblər.

Həmçinin, rayonun Qazıqumlaq və Çiyni kəndlərində yerləşən ulu öndərin abidəsi önündəki ərazilərdə fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərlərinin və kollektivlərinin, məktəblilərin, ictimaiyyət nümayəndələrin iştirakı ilə geniş anım mərasimi keçirilib.

**"Respublika".**